

2020-ci il 2 yanvar tarixində Əməkdar artist, Dövlət Mükafatı laureatı Səməndər Rzayevin 75 yaşı tamam olur.

Yanvarın 28-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Səməndər Rzayevin əziz xatirəsinə ithaf olunmuş "Dəli yığıncağı" (C.Məmmədquluzadə) tamaşası nümayiş olunacaq və foto-şəkillərdən ibarət sərgi keçiriləcək.

# Səməndər Rzayev - 75

Səməndər Mənsim oğlu Rzayev 1945-ci ildə Ağsuda anadan olub. O, Ağsu rayonundakı dram dərnəyində aktyorluqla məşğul olub, 1964-1968-ci illərdə M.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun Dram və kino aktyorluğu fakültəsində təhsil alıb. Sənət müəllimləri Rza Təhmasib, Mehdi Məmmədov, Adil İsgəndərov olmuşdur.

1968-ci ildə institutun son kursunda oxuyarkən baş rejissor Tofiq Kazımovun dəvəti ilə Azərbaycan Dövlət Akademik Dram Teatrının truppasına qəbul edilən S.Rzayevin ilk rolu "Hamlet" (U.Şekspir) tamaşasında Horatsio olub.

Azərbaycan Dövlət Radiosunun "Bulaq" folklor toplusunun Bulaq dədəsi kimi məşhurlaşan aktyor teatrda Hatəmxan ağa ("Müsyö Jordan və dərviş Məstəli şah", M.F.Axundzadə), Fazil Küleyni ("Dəli yığıncağı", C.Məmmədquluzadə), Xacə Nizam, Knyaz, İbn Yəmin ("Xəyyam", "Knyaz", "İblis", H.Cavid), Balaxan ("Aydın", C.Cabbarlı), Vaqif ("Vaqif", S.Vurğun), Əmir İnanc ("Qılınc və qələm", M.S.Ordubadi), Qənimət, Muradov ("Məhv olmuş gündəliklər", "Qəribə oğlan", İ.Əfəndiyev), İkinci Rəşad, Əmir ("İkinci səs", "Fərhad", B.Vahabzadə), Mazar bəy ("Közərən ocaqlar", M.İbrahimov), Tərlan ("Sənsiz", Ş.Qurbanov), Bəhram Zeynallı, Xudayar bəy ("Şəhərin yay günləri", "Sizi deyib gəlmişəm", Anar), Doqberi, Kaliban ("Heç nədən hay-küy", "Fırtına", U.Şekspir) və s. yaddaqalan obrazlar yaratmışdır.

"Azərbaycanfilm" kinostudiyasında istehsal olunmuş "Arxadan vurulan zərbə" (1977), "Babamızın babasının babası" (1981), "Ad günü" (film, 1977), "Babək" (1979), "Bağ mövsümü" (1985), "Bəyin oğurlanması" (1985), "Çarvadarların izi ilə" (1974), "Evlənmək istəyirəm" (1983), "Evləri köndələn yar" (1982), "Qatır Məmməd" (1974), "Qərib cinlər diyarında" (1977), "Qız qalası əfsanəsi" (1978), "Qızıl qaz" (1972), "Nəsimi" (1973), "Nizami" (1982), "O qızı tapın" (1970), "Od içində" (1978), "Ömrün ilk saatı" (1973), "Ömrün səhifələri" (1974), "Sarıköynəklə Valehin nağılı" (1980), "Tütək səsi" (1975), "Uşaqlığın son gecəsi" (1968) və s. filmlərdə çəkilmişdir.

2015-ci ildə Azərbaycan Televiziyasında çəkilən "Ömür payı. Səməndər Rzayev" sənədli filmi aktyorun 70 illik yubileyinə həsr olunmuşdur.

S.Rzayev 27 mart 1986-cı ildə Bakı şəhərində vəfat etmişdir.

O, Azərbaycan teatrı və kinosunun inkişafındakı xidmətlərinə görə 1974-cü ildə Azərbaycan SSR Əməkdar artisti fəxri adına, 1980-ci ildə Azərbaycan SSR Dövlət Mükafatına layiq görülmüşdür.